# «Məlumat toplularının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Məlumat toplularının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Məlumat toplularının hüquqi qorunması haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. «Məlumat toplularının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. «Məlumat toplularının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 12.3-cü və 12.2-ci maddələrində nəzərdə tutulmuş məlumat toplularının rəsmi qeydiyyat qaydalarını və qeydiyyat haqqında şəhadətnamənin nümunəsini təsdiq etsin;

1.5. həmin Qanunun 12.4-cü maddəsində nəzərdə tutulmuş rəsmi qeydiyyatdan keçirilmiş məlumat toplusuna hüquqların tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatdan keçirilməsi qaydasını müəyyən etsin;

1.6. öz səlahiyyətləri daxilində «Məlumat toplularının hüquqi qorunması haqqında» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. «Məlumat toplularının hüquqi qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 12.3-cü və 12.4-cü (birinci halda) maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin qanunun 12.1-ci və 12.4-cü (ikinci halda) maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV.***

***Bakı şəhəri, 5 noyabr 2004-cü il.***

***№ 140.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (11 noyabr 2004-cü il, № 263)***